*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 oktyabr 2017-ci il № 75 (2192) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Minsk qrupunun əsas fəaliyyət sahəsi Ermənistanın işğalçı rejiminə daha çox təzyiq göstərmək olmalıdır

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Avropa İttifaqının Brüsseldə akkreditə olunmuş səfirlərinin daxil olduğu Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident Dağlıq Qarabağ münaqişəsinə toxunaraq bildirib ki, qarşımızda duran əsas çağırışlardan biri, artıq 25 ildən çoxdur davam edən Ermənistanın Azərbaycana qarşı təcavüzüdür.*



"Əslində bu, Sovet İttifaqının süqutu ərəfəsində başlayıb və Sovet İttifaqı dağılandan dərhal sonra Ermənistan və digər xarici qüvvələrin dəstəyi ilə Dağlıq Qarabağdakı erməni separatçıları bəşəriyyətə qarşı cinayət törətdilər. Onlar azərbaycanlılara qarşı etnik təmizləmə apardılar və bir milyondan artıq azərbaycanlı məcburi köçkün və qaçqına çevrildi. Onlar Dağlıq Qarabağı tamamilə işğal etdilər, orada olan 30 faizə yaxın Azərbaycan əhalisini qovdular və ermənilərin heç vaxt yaşamadığı Dağlıq Qarabağ ətrafındakı 7 rayonu işğal etdilər. Bundan əlavə, bu işğal nəticəsində Ermənistanda yaşayan 250 min azərbaycanlı da etnik təmizləməyə məruz qaldı. Bir milyon nəfər. Həmin vaxt Azərbaycanın əhalisi 8 milyondan bir qədər artıq idi. Bu, adambaşına düşən qaçqın və məcburi köçkünlərin sayına görə ən yüksək rəqəmlərdən biri idi.

İşğal olunmuş ərazilərdəki vəziyyət beynəlxalq ictimaiyyətə məlumdur. ATƏT işğal olunmuş torpaqlara iki dəfə faktaraşdırıcı və qiymətləndirmə missiyaları göndərib və onların hesabatlarında həmin torpaqlarda vandalizm aktlarının törədildiyi göstərilib. Bütün binalar, məzarlar və qəbiristanlıqlar, məscidlər ermənilər tərəfindən dağıdılıb. Onlar Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədərək 613 günahsız insanı qətlə yetirdilər. Onların 100-dən çoxu qadın, 60-dan çoxu uşaq idi. Onlar bizim tarixi və dini abidələrimizi dağıdaraq mədəni irsimizə qarşı soyqırımı törətdilər. Vəziyyət belədir.

Əfsuslar olsun ki, ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar heç bir praktiki nəticə əldə olunmadan uzun illərdir davam edir. Ermənistan status-kvonu dəyişməz olaraq saxlamağa çalışır. Münaqişənin həll olunmamasının əsas səbəbi budur. Bundan əlavə, Ermənistan 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi, erməni qoşunlarının işğal olunmuş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrə əməl etmir. Əfsuslar olsun ki, bu qətnamələr kağız üzərində qalır. Bəzən bir neçə gün ərzində yerinə yetirilən bəzi başqa qətnamələrdən fərqli olaraq, bizə gəlincə, biz onların yerinə yetirilməsini 20 ildən artıqdır, daha dəqiq desək 24 ildir ki, gözləyirik. Status-kvo qəbuledilməzdir. Bunu təkcə Azərbaycan deyil, həm də ATƏT-in Minsk Qrupuna həmsədrlik edən ölkələr deyir. Bu ölkələrin prezidentləri bir neçə dəfə bəyan ediblər ki, status-kvo dəyişdirilməlidir, bu, qəbuledilməzdir. Ermənistan buna sadəcə olaraq göz yumur və status-kvonu dəyişməz olaraq saxlamaq üçün əlindən gələni edir. Onlara qarşı beynəlxalq səviyyədə təzyiq artanda, onlar 2014-cü ildə olduğu kimi, təmas xəttində hərbi təxribatlara başlayırlar. Onlar hərbi helikopterlərlə bizim mövqelərimizə hücum edəndə və biz cavab vermək məcburiyyətində qalanda bu, bütünlükdə 2015-ci il ərzində danışıqların dondurulmasına səbəb oldu. 2016-cı ildə təzyiq yenidən artmağa başlayanda onlar kəndlərimizi atəşə tutmağa başladılar və 6 mülki şəxsi qətlə yetirdilər, 20-dən artıq adam yaralandı və biz yenə də cavab verməli olduq. Cavab çox ciddi və effektiv oldu. Biz ərazilərimizin mühüm hissəsini azad etməyə müvəffəq olduq. Ermənilər yenə də bunu bəhanə edərək bizi təcavüzdə günahlandırdılar və danışıqlara yenidən başlamaq üçün şərtlər irəli sürməyə başladılar. Sözsüz ki, Azərbaycan bu şərtlərin heç birini qəbul etmədi. Ermənilər bizim bunu heç vaxt qəbul etməyəcəyimizi, yəqin ki, başa düşürlər. Bu, ola bilsin ki, onlar üçün məlum səbəblərə görə daha bir vaxt qazanmaq fürsəti idi. Beləliklə, 2016-cı ildə, ilin ikinci yarısında və 2017-ci ildə danışıqlarla bağlı vəziyyət bir növ dondurulmuşdur. Onların taktikası status-kvonu bacardıqları qədər dəyişməz saxlamaqdır. Hazırda onlar regionun keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və Dağlıq Qarabağ ətrafındakı 7 rayonun qondarma "Dağlıq Qarabağ respublikası"nın bir hissəsi kimi təqdim olunduğu yeni xəritələrini tərtib edirlər. Bu, onların münaqişənin sülh yolu ilə həllində maraqlı olmadığını göstərir. Bizim mövqeyimiz çox aydın və sadədir, dəfələrlə ifadə olunub. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir. Tarix bu faktı təsdiqləyir. Dağlıq Qarabağ Azərbaycanın qanuni hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Biz tarixən bizə məxsus olan torpaqlarda ikinci qondarma erməni dövlətinin yaradılmasına razılıq verməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilməli, Ermənistanın işğalçı qüvvələri işğal olunmuş bütün ərazilərdən qeyd-şərtsiz çıxarılmalıdır. Sonra sülh olacaq və vəziyyət sabit hesab ediləcək.

Bu gün bu münaqişənin mövcudluğu regional təhlükəsizliyə və sabitliyə daimi təhlükədir. Beləliklə, görüşümüzün əvvəlində sizə əvvəla nə baş verdiyi və nə etməklə bağlı fikirlərimi təqdim etmək istədim. Düşünürəm ki, qarşıdakı ayda Minsk qrupunun əsas fəaliyyət sahəsi, - yəqin ki, onların regiona səfər etməyi planlaşdırdığını bilirsiniz, - beynəlxalq hüquq normalarına əməl etməsi üçün Ermənistanın işğalçı rejiminə daha çox təzyiq göstərmək olmalıdır. Münaqişənin həll olunmamasının səbəblərindən biri təcavüzkara qarşı beynəlxalq səviyyədə təzyiqin olmamasıdır. Əgər Ermənistana qarşı sanksiyalar tətbiq olunsaydı, beynəlxalq hüquq normalarını və humanitar normaları kobud şəkildə pozan ölkəyə qarşı ciddi sanksiyalar tətbiq edilsəydi, bəlkə də münaqişə çoxdan həll edilmiş olardı. Beynəlxalq ictimaiyyətin Ermənistana münasibətdə bu cür mülayim siyasəti onlarda belə təsəvvür yaradır ki, onlar bizim torpaqlarımızda qanunsuz şəkildə qalmağa davam edə bilərlər və bu, səbəblərdən biridir. Lakin düşünürəm onlar başa düşməlidirlər ki, bu, mümkün olmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Mənim buna şübhəm yoxdur. Məsələ burasındadır ki, biz bunu sülh yolu ilə etmək istəyirik."

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi Akademiyada Pakistan nümayəndə heyəti ilə görüş keçirilib

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Pakistan İslam Respublikası Birləşmiş Qərargahı arasında imzalanmış protokola əsasən, Pakistan Milli Müdafiə Universitetinin nümayəndəsi general-mayor Fayyaz Hüseyn Şahın rəhbərlik etdiyi heyət Bakıda səfərdədir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında keçirilən görüşdə hərbi təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı layihələrin həyata keçirilməsi, birgə fəaliyyət sahələrinin müəyyən edilməsi, ikitərəfli əməkdaşlıq və digər məsələlər müzakirə edilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**6 sentyabr 2017-ci il.** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 104 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Berdavan, Dovex, Barekamavan, Şavarşavan kəndlərində və İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli, Cəfərli və Bala Cəfərli kəndlərində, Berd rayonunun Nerkin Karmirağbur, Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Ağbulaq və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Ön xətdən reportaj*

# Vətən belə qorunur!..

*Yenə yolumuz uca zirvələrədir. O zirvələrə ki, orada Vətənimizin müdafiəsində ayıq-sayıq dayanan mərd oğullarımız məskən salıb.*

Düşmənin qorxulu kabusuna çevrilən Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən bölmələrində vətənpərvərlik hissi ilə xidmət edən əsgər və zabitlərimiz hər an döyüşə hazırdırlar. Çünki döyüş hazırlığı planına uyğun keçirilən məşğələlərdə bilik və bacarıqları daha da təkmilləşdirilən hərbi qulluqçularımız ən çətin döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlirlər. Ön xətdə artilleriyaçılarımızın dərsində iştirak etdim. Zabit Samir Baqiri minaatan haqqında şəxsi heyətə ətraflı məlumat verərək bildirdi ki, bu qurğu düşmənin açıqda və səngərdə, təpələrin əks yamaclarında, dərələrdə, yarğanlarda yerləşmiş canlı qüvvəsini, atəş vasitələrini məhv etmək və susdurmaq, habelə müşahidə məntəqələrini və atəş vasitələrini susdurmaq, tüstü pərdəsinin qoyulması və ərazini işıqlandırmaq üçün tətbiq edilir. Məşğələ zamanı ötən dərslərdə keçirilmiş mövzular yada salınır, şəxsi heyətin sualları tam dolğunluğu ilə cavablandırılırdı.



Dərsdən sonra artilleriyaçı hərbi qulluqçularımızla həmsöhbət olub, xidmətlə bağlı təəssüratlarını öyrəndim. Zabit Xəyyam Mustafayev, kiçik çavuş Elçin Nadirov və ölkəmizin müxtəlif bölgələrindən hərbi xidmətə çağırılmış Mirsamir Seyidov, Teymur İlyasov, Aydın İsmayılov, Ələkbər Rzayev, Arzu Qurbanov, Sərxan Bağırov və digər əsgərlər ön xətdə xidmət etməyin qürurundan, peşəkar hərbçi kimi səngərlərdə ayıq-sayıq xidmət aparmağın şərəfindən danışdılar. Əsgərlərimizin hər biri Azərbaycanımızın müxtəlif bölgələrindən olsalar da, onları bir amal birləşdirir - Vətənin layiqli əsgəri kimi istənilən anda döyüşə atılaraq düşməni darmadağın etmək.

Əldə silah Vətən torpaqlarının müdafiəsində ayıq-sayıq dayanan əsgərlərimizlə həmsöhbət olmaq adamı daha da qürurlandırır. Artilleriyaçılarımızın fikirləri ilə tanış olduqdan sonra səngərlərə yollanırıq. İlk müsahibim əsgər Eltun Mədətov oldu. Əsgərin hərbi xidmət haqqındakı fikirləri qısa və aydın idi: "Bir gənc kimi düşmənlə üz-üzə mövqelərdə xidmət aparıram. Bu mənim üçün qürurvericidir. Həm də şərəfli əsgər adını qazanmaq mənə ikiqat sevinc və qürur hissi yaşadır".

Digər əsgər Fuad Məhərrəmovun fikirləri isə belə idi: "Buradan valideynlərimə, yaxınlarıma və məni tanıyan hər kəsə salam göndərərək bildirirəm ki, Vətən əmanəti olan biz əsgərlər səngərlərdə torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanmışıq. Keçirilən dərs, məşğələ və təlimlərdə fəal iştirak edərək, bilikli, bacarıqlı, tam hazırlıqlı əsgərlər kimi gücümüzü ikiqat artırırıq ki, həmişə düşməndən güclü olaq, hər bir hiylə və təxribatın qarşısını inamla alaq".

Digər həmsöhbətim isə zabit Elşən Aslanovdur.

- Bir zabit kimi üzərimizə düşən vəzifə tabeliyimizdəki şəxsi heyəti yenilməz döyüşçü kimi formalaşdırmaqdır, - zabit dedi. - Bunun üçün də əlimizdəki bütün imkanlardan istifadə edərək hərbi qulluqçuların peşəkarlığını artırırıq. Bütün bunların nəticəsidir ki, bölmənin əsgərlərindən Əbülfəz Həsənov, Arzu Məmmədov, Vaqif Qasımov və başqaları nümunəvi xidmətləri ilə hər zaman seçilirlər. Onların xidmətlə bağlı təəssüratlarını öyrənsəniz, bir ağızdan deyəcəklər ki, döyüş postlarında, əlimizdə silah Vətənimizin müdafiəsində ayıq-sayıq dayanmaq, düşmənin qorxulu kabusuna çevrilmək böyük şərəfdir.



Artıq bölmədən ayrılmağın vaxtıdır. Şəxsi heyətlə sağollaşıb yola düşürəm. Yolboyu bölmənin hərbi qulluqçularının hər birinin səsləndirdiyi fikirlər, onların vətənpərvərliyi, apardıqları nümunəvi xidmət barədə düşünür və bir Azərbaycan vətəndaşı kimi sevinc, qürur hissi keçirirəm. Çünki ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin hazırda uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün hər bir vətəndaşımız rahat, sabitlik şəraitində yaşayır, Azərbaycan əsgərinə güvənərək öz gündəlik fəaliyyəti ilə məşğul olur. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi kimi böyük təşkilatlanma yolu keçən Əlahiddə Ümumqoşun Ordu qədim hərb ənənələrinə və mübarizə tarixinə malik olan Naxçıvan diyarının müdafiə qüdrətini özündə yaşadır. Göründüyü kimi, döyüş hazırlığını gündən-günə artıran Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti torpaqlarımızın müdafiəsində cəsarətlə dayanır, ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq müstəqilliyimizin qorunmasında və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında öz vəzifələrini şərəflə yerinə yetirir. Deməli, nə bu gün, nə də gələcəkdə heç bir düşmən əli bu torpaqlara uzana bilməz.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Hərbi qulluqçular Cocuq Mərcanlıda müəllimlərin peşə bayramını təbrik ediblər

*Müdafiə Nazirliyinin və cəbhə bölgəsindəki hərbi birliyin bir qrup hərbi qulluqçusu Beynəlxalq Müəllimlər Günündə Cəbrayıl rayonunun Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbində olublar.*



Səmimiyyətlə qarşılanan hərbi qulluqçular əvvəlcə yeni inşa edilmiş məktəb kompleksinin dəhlizindəki fotoguşələr, dərs otaqları və fənn kabinələri ilə tanış olublar.

Məktəbin pedaqoji kollektivi ilə keçirilən görüşdə Müdafiə Nazirliyinin zabiti, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani müəllimləri Müdafiə Nazirliyinin rəhbərliyi adından peşə bayramları münasibətilə təbrik edərək onlara düşmənin bir neçə kilometrliyində yerləşən məktəbdə dərs deməyin böyük fədakarlıq olduğunu xatırladıb və çətin, məsuliyyətli, eyni zamanda şərəfli fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd olunub ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin xeyir-duası və Azərbaycan Ordusunun şücaəti ilə 1994-cü ilin yanvarında Füzuli rayonunun 22 yaşayış məntəqəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi erməni işğalından azad edilsə də, 23 il keçməsinə baxmayaraq bu kənddə hələ də yaşayış bərpa edilməmişdi.

2016-cı ilin məlum aprel döyüşlərindən sonra düşmən caynağında olan yüksəkliklər azad edildikdən sonra bu ərazilər ordumuzun tam nəzarətinə keçmişdir. Yalnız bundan sonra Azərbaycan Prezidentinin sərəncamı ilə Cocuq Mərcanlıda bərpa quruculuq işləri başlamış və böyük qayıdış konsepsiyasının ilk köçü doğma yurd yerinə qayıtmışdır.

Möhtərəm Prezidentimiz İlham Əliyevin şəxsən iştirakı ilə Cocuq Mərcanlı kəndi xarabalıqları üzərində qurulmuş yeni yaşayış məntəqəsinin və bir çox obyektlərin, eləcə də kənd tam orta məktəbinin açılışı olmuş, uzun illərdən sonra məktəbdə ilk zəng çalınmışdır.

Polkovnik Elşad Əbilov Silahlı Qüvvələrin şəxsi heyətinin bayram təbrikini məktəbin pedaqoji kollektivinə çatdıraraq müəllimlərə hədiyyə və A.Qurbaninin "Lələtəpə fatehləri" kitabını təqdim edib.

Görüşdə aprel döyüşlərinin iştirakçılarından Seymur Həbibullahov, Rövşən Rəhimov, Emil Əhmədov və başqaları çıxış ediblər. Onlar Vətən torpaqlarının keşiyində bundan sonra da ayıq-sayıq dayanacaqlarını bildirərək müəllimlərə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi işində uğurlar arzulayıblar.




Müəllimlərdən Səidə Quliyeva, Raya Abbasova, Leyla Maqsudova, Gülarə İbrahimova, icra hakimiyyətinin nümayəndəsi Xanlar Zeynalov və başqaları göstərilən diqqət və qayğıya görə minnətdarlıq ifadə ediblər.

Tədbirin sonunda məktəblilər Vətəni və Azərbaycan Ordusunu tərənnüm edən şeirlər söyləyiblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Gənc zabitlərimiz*

# Ruh yüksəkliyi qələbənin rəhnidir

*Hərbçi peşəsi daha çox istedad, təşkilatçılıq qabiliyyəti, insanların ürəyinə yol tapmaq bacarığı, xeyirxahlıq, Vətənə və xalqa xidmət, vəzifə borcuna sadiqlik tələb edir.*

Bu peşənin yolçularından biri də 1989-cu ilin yayında Azərbaycanın dilbər guşələrindən birində - füsunkar Qazax rayonunun Daş Salahlı kəndində dünyaya göz açan baş leytenant Abdurəhman Mancanovdur. O, həyata gözünü açandan hansı səmtə boylanıbsa, uca və əzəmətli dağları görüb. Bu ucalıq, bu əzəmət ruhuna elə hopub ki, böyüdükcə, həyatı dərk etdikcə, Vətəninə, torpağına, ətrafındakı insanlara, seçdiyi peşəyə sevgisi də artıb. Bu günlərdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun cəbhəboyu zonada yerləşən hərbi hissələrə səfəri zamanı qiymətli hədiyyələrlə mükafatlandırılan hərbi qulluqçuların sırasında baş leytenant Abdurəhman Mancanovun da adı var.

Görüş zamanı həmsöhbətim aldığı qiymətli hədiyyənin mənəvi dəyərini vurğulamaq üçün məşhur sərkərdə Napoleondan sitat gətirdi. "Bütün müharibələrdə silah ruhla döyüşür və qalib gələn ruh olur":

- Cənab nazirin hərbi qulluqçularımızın döyüş, mənəvi-psixoloji hazırlığı və sosial-məişət şəraiti ilə maraqlanması, döyüşçülərlə səmimi görüşləri yaddaşımdan heç bir zaman silinməyəcək, - zabit dedi. - Etiraf edim ki, Müdafiə nazirimiz ilə görüş gözlənilməz, həyəcanlı, sevincli və qürurlu idi. Təqdim etdiyi hədiyyənin dəyərinə gəldikdə isə qeyd etmək istəyirəm ki, ordunun gücü yalnız onun sahib olduğu texnika və ya təlimlərdə deyil. Əlbəttə ki, döyüşlər zamanı texnikanın rolu danılmazdır. Amma bütün dünya müharibələrində baş verənlər göstərir ki, qələbəni qazandıran insan amilidir, ruh yüksəkliyidir. Bu baxımdan Müdafiə naziri general-polkovnik Zakir Həsənovun mənə və digər hərbi qulluqçulara təqdim etdiyi qiymətli hədiyyələrin dəyəri mənəvi etalonla ölçülür. Bizim üçün bu hədiyyələr ölçüyəgəlməz dəyərə malikdir və bu mükafatları, hərbi hissənin komandiri başda olmaqla, bütün hərbi qulluqçularımıza təqdim olunmuş hədiyyə hesab edirəm.

Söhbət zamanı həmkarım onu da bildirdi ki, döyüşdə qə-



ləbənin qazanılması texnika və texnikanı idarə etmək üçün əldə olunan biliklərdən, ruh yüksəkliyindən nə qədər asılıdırsa, bir o qədər də düşmən haqqında məlumatların dəqiqləşdirilməsindən asılıdır: "Ona görə də düşmən daim nəzarətdə olmalı, onun haqqında hər şey araşdırılmalı, dəqiqləşdirilməli, hədəfin xarakteri aydınlaşdırılmalı, düşmən postlarında dayaq məntəqələrinin koordinatları çıxarılmalı və komandanlığa dəqiq məlumatlar verilməlidir. Bundan sonra Qələbənin əsası qoyulur".

- Hər kəsin dəyəri onun Vətənə, torpağa bağlılığı, insanlara sevgisi ilə ölçülür, - deyə həmsöhbətim sözünə davam etdi. - Həyatın, yaşamağın, mübarizə aparmağın özü əsl sevgi deməkdir. Çünki sevgi insanda ikinci ruhdur. Bu ruhun bir zabit kimi məndə formalaşmasında doğmalarımın, xüsusən də torpaqlarımızın azadlığı uğrunda döyüşmüş müharibə veteranı, II qrup Qarabağ müharibəsi əlili olan atamın rolu danılmazdır. Valideynlərimin sayəsində bilirəm ki, insan sevgisi ilə var olur. Hər zaman vətənpərvər oğullarımızın Vətənimizə, torpağımıza olan sonsuz sevgisinin sayəsində uğur qazanacağımıza inanmışam və bu gün də ikiqat inanıram. Həmin sevginin nəticəsidir ki, aprel döyüşləri ordumuzun işğalçı Ermənistan üzərində qələbəsi kimi tarixə düşdü. İllər sonra Qarabağda qazanılan zəfər xalqımıza hədsiz sevinc və qürur hissi bəxş etdi. Bu bir həqiqətdir ki, şəxsi heyətin ruh yüksəkliyi qələbənin rəhnidir. Ali Baş Komandanımızın orduya diqqət və qayğısının, Vətənə olan sevgimizin sayəsində bu zəfər davamlı olacaq.

**Kapitan Məhəmməd ƏLİYEV, "Azərbaycan Ordusu", foto çavuş Namiq PƏNAHOVUNDUR**

# "Status-kvo qəbuledilməzdir və biz mütləq siyasi nizamlanmaya nail olmalıyıq"

*Hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsində status-kvo qəbuledilməzdir və biz mütləq siyasi nizamlanmaya nail olmalıyıq.*

AZƏRTAC xəbər verir ki, bu sözləri Avropa İttifaqının Brüsseldə akkreditə edilmiş Fransadan olan səfiri Nokalas Suran Prezident İlham Əliyevlə görüş zamanı bildirib.

Dövlətimizin başçısının Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin nümayəndə heyəti ilə görüşündə çıxış edən Nokalas Suran deyib: "Məqsədimiz çox aydındır: beynəlxalq hüququn prinsiplərinə, xüsusən də hamımız üçün sarsılmaz olan Helsinki Yekun Aktına uyğun şəkildə məsələnin həllinə nail olmaq. Yəni, bildiyimiz kimi, güclə təhdid etməmək və ya ondan istifadə etməmək, dövlətlərin tam ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etmək həmin Aktın prinsipləridir. Bu baxımdan, tərəflər arasında ən yaxşı həll variantının tapılmasında qərəzsiz olmaqda Minsk qrupunun həmsədri kimi bizə arxalana bilərsiniz".

# "Ehtiyata buraxıldıqdan sonra da Vətənin əsgəriyik"

*Gənclər üçün hərbi xidmətin böyük önəmi var. Torpaqlarımızın bir hissəsinin işğal altında olduğu bir şəraitdə, hərbi xidmət keçən gənclər Vətən qarşısında övladlıq borcunun öhdəsindən layiqincə gəlirlər. Gənclərdə vətənpərvərlik hissinin formalaşmasında, cəmiyyətə yararlı şəxsiyyət kimi yetişməsində və mənəvi keyfiyyətlərə yiyələnməsində əsgəri xidmətin rolu danılmazdır. Hərbi xidmət dövründə gənclər milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda, gələcəyin nümunəvi vətəndaşları kimi formalaşırlar. Ordu gəncləri bizimlə söhbətlərində hərbi xidmətin onlara dözümlülük, möhkəmlik kimi keyfiyyətlər qazandırdığını deyirlər.*



**Əsgər Nicat Hümbətli:**

- Hərbi xidmətə Qəbələ rayonundan çağırılmışam. Bu şərəfli yolu uğurla keçdiyim üçün çox sevinirəm. Bu yol hər bir gənc üçün öncə vətəndaşlıq borcudur. Xidmətim dövründə bir çox üstün keyfiyyətlərə yiyələndim, dəyərli dostlar qazandım. Ordumuzun gücünün, müasir silah və texnikalara malik olduğunun şahidi oldum. Həmçinin savadlı, peşəkar komandirlərimiz tərəfindən hərbi bilik və bacarıqlara yiyələndim. Komandirlərimiz bizə hərbi biliklər, nizam-intizam, döyüş hazırlığı öyrətməklə yanaşı, qayğılarımızla da yaxından maraqlanırlar. Tez-tez fərdi söhbətlər aparır, mənəvi-psixoloji hazırlığımızın yüksəldilməsi istiqamətində işlər görürlər. Hərbi hissəmizdə yaradılan şəraitə isə söz ola bilməz. Sosial-məişət şəraitimiz yüksək səviyyədə təşkil olunub. Vətənə borcumuzu uğurla ödəmək üçün belə yüksək şərait yaradıldığına görə Ali Baş Komandanımıza minnətdarlığımı bildirirəm.

**Əsgər Orxan Vəliyev:**

- Hərbi xidmətə Şabran rayonundan çağırılmışam. Əsgəri xidmətin ən çox sevdiyim cəhətlərindən biri günün nizam qaydasıdır. Mülki həyatda olarkən nə vaxtında qidalanırdıq, nə yatıb-dururduq, nə də ki, idmanla mütəmadi məşğul olurduq. Amma hərbi hissəyə gələndən günün nizam qaydasına uyğun olaraq vaxtlı-vaxtında yatmaq, qidalanmaq və gündəlik idmanla məşğul olmaq əsas vərdişlərimizə çevrilib. Hər gün daha da gümrahlaşdığını hiss edirsən. İndi daha güclü və sağlamam, həmçinin hərbi biliklərə dərindən yiyələnib, vəzifə borclarımı, silahımın sirlərini mükəmməl öyrəndim. Xidmətimi başa vurub ailəmin yanına qayıtdığım üçün sevincliyəm, lakin əsgər yoldaşlarımdan ayrılacağıma görə kədərlənirəm. Cəbhəyə, əsgər yoldaşlarımın yanına qayıtmağa, işğalda olan torpaqlarımızı azad etmək uğrunda onlarla çiyin-çiyinə vuruşmağa hər an hazıram.

**Əsgər Yavər Abbasov:**

- Hərbi xidmət yaşına çatmış yoldaşlarıma, dostlarıma səslənmək istəyirəm ki, hər bir gənc hərbi xidmət keçməlidir. Bizi bu günə kimi və bundan sonra bir ömür qoynunda bəsləyən ana Vətənimizə xidmət etmək hər birimizin müqəddəs borcudur. Guşədə rəsmləri olan Milli qəhrəmanlarımızın hər biri mənim üçün qürur mənbəyidi. Onların qəhrəmanlıqları ilə mənəvi güc tapır, döyüş meydanında onlar kimi şücaət göstərməyin arzusundayam. Bizə əsgəri xidmət zamanı şəhidlərimizin, Milli qəhrəmanlarımızın canı bahasına əmanət edilən Vətən torpaqlarının keşiyində durmaq vəzifəsi tapşırılır. Bu vəzifə hər bir gənc üçün ən şərəfli vəzifədir.

**Əsgər Nurulla Atamov:**

- Gənc əsgər olduğum dövr hələ də yadımdadır. İlk dəfə sıra hazırlığı keçdiyim gün hərbi formanı geyinib sırada dayanmışdım, əsgər olmuşdum. Həyacanlı idim, sevinirdim də. Komandirimiz sıranın müqəddəs olduğundan, nizam-intizamın sıradan başlandığından danışırdı. Hər kəs komandirə diqqətlə qulaq asır, öyrəndiklərini həvəslə yerinə yetirirdi. Silahdan ilk dəfə atəş açdığım gün də yaddaşımda əbədi həkk olunub. Silahımı doldurub nişan aldım. Çox həyəcanlı idim, hədəfi məhv edib əla qiymət almaq istəyirdim. Nişangahımda hədəfi gördüm. Birinci atəş hədəfdən yan keçdi, özümü topladım. Düşündüm ki, bu cansız hədəf deyil. Torpaqlarımızı işğal edən, dinc əhalimizə divan tutan, Zəhralarımızın canına qıyan düşməndir. Atəş açdım, hədəfi məhv etdim... Bu gün ön xətdə xidmətimi başa vurmağa hazırlaşıram. Artıq təcrübəli əsgərəm və yenidən ordu sıralarına qayıdıb, torpaqlarımızın azadlığı uğrunda döyüşə atılmağa daim hazıram.

**Əsgər Yusif Qəmbərli:**

- Sumqayıtdanam. Valideynlərimdən, orta və ali məktəbdə keçirilən dərslərdən xalqımızın düşmənlərin təcavüzünə məruz qaldığını, doğma el-obalarını tərk etmələrini öyrənmişəm. Ərazi bütövlüyümüz uğrunda, təpədən-dırnağadək silahlanmış erməni casuslarına qarşı döyüşən xalqımın qəhrəmanlıqlarını eşidərək böyümüşəm. Bunların hamısını eşitdikcə, bildikcə mənim ermənilərə nifrətim artıb. Hər bir əsgər kimi mən də həmvətənlilərimizin qisasını alacağım günü səbirsizliklə gözləyirəm. Azərbaycan Ordusunun əsgəri olduğum üçün fəxr edirəm. Fəxr edirəm ki, xalqımı, millətimi düşməndən qoruyuram. Əsgəri xidmətdə bir daha əmin oldum ki, tezliklə Şuşanı, Xocalını, Laçını və işğalda olan digər rayonlarımızı da düşmən tapdağından azad edəcəyik. Xidmətimin bitməsinə baxmayaraq mən hər zaman əsgərəm, hər zaman Vətənimin keşiyində son nəfəsimə qədər dayanmağa hazıram.

**Əsgər Sahib Muradəliyev:**

- Hərbi xidmətə Sabunçu rayonundan çağırılmışam. Vətən sadəcə müəyyən sərhədləri olan coğrafi bir məkan deyildir. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Biz Vətənin suyunu içir, çörəyini yeyir, havasını uduruq. Evimiz, obamız bu torpaqlardadır. Baba və nənələrimiz bu torpaqlarda uyuyur, ata-anamız bu torpaqlarda addımlayırlar. Nahaq yerə "ana Vətən" sözü işlədilmir. Vətən ana qədər sevimlidir, ana namusu kimi qorunmalıdır. Mən də fikirləşmədən canımı və qanımı Vətən yolunda fəda verməyə hazıram. Əsgəri xidmət Vətən qarşısında övladlıq borcumuzdur və sevincliyəm ki, bu borcun öhdəsindən layiqincə gəldim.

Əsgərlərlə söhbətimiz zamanı bir daha əmin olduq ki, Azərbaycan əsgəri Vətənini sevir, layiqincə xidmət edir. Üzərinə düşən müqəddəs vəzifəni yerinə yetirməyə hər an hazırdır.

**Leytenant
Orxan HÜSEYNLİ,
leytenant
Mahmud MÖHBALIYEV,
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Hərbi topoqrafiya üzrə ekspertlərin görüşü keçirilib



Azərbaycan Respublikası və Rusiya Federasiyası Müdafiə nazirliklərinin hərbi topoqrafiya ekspertlərindən ibarət heyətləri arasında Bakı şəhərində işçi görüşü keçirilib.

Tədbirdə Azərbaycan və Rusiya Silahlı Qüvvələrində hərbi topoqrafiya, geodeziya və kartoqrafiya sahəsində təcrübənin öyrənilməsi və tətbiqi barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Ermənistan ordusunda daha bir qanlı insident baş verib

Azərbaycanın işğal edilmiş ərazilərindəki Ermənistan ordusunun dislokasiya olunan hərbi hissələrində Dağlıq Qarabağdan olan ermənilərlə Ermənistandan çağırılan hərbçilər arasında gərgin münasibətlər nəticəsində qanlı insidentlərin baş verməsi adi hala çevrilib.

Ermənistandan hərbi xidmətə çağırılan və zorla Qarabağ ərazisinə göndərilən hərbçilər tərəfindən vəzifə səlahiyyətlərinin aşılması və nizamnamədən kənar münasibətlər zəminində baş verən hadisələr zamanı mənəvi və fiziki işgəncələrə dözməyən Qarabağ ermənilərindən olan hərbçilər son çıxış yolunu silaha əl atmaqla ya özünə, ya da onu incidənə xəsarət yetirməkdə görürlər.

Sentyabrın 28-də baş verən daha bir qanlı insident nəticəsində ermənistanlı hərbi qulluqçu yaralanıb. Xocavənd rayonu ərazisində işğalçı ordunun postlarından birində şəxsi heyət arasında baş verən dava zamanı post başçısı əslən Ermənistanın Dilican rayonundan olan, 1998-ci il təvəllüdlü Seyran Sarkisyan əslən Qarabağ ermənisi olan xidmət yoldaşı tərəfindən açılan atəşlə başından yaralanıb.

S.Sarkisyan hospitala aparılarkən yolda keçinib. Faktla bağlı araşdırma aparmaq üçün qondarma "ordu"nun vəzifəli şəxsləri əraziyə gəliblər. Ermənistan Müdafiə Nazirliyi tərəfindən insidentin əsl səbəbi gizlədilərək, hadisənin guya "qarşı tərəfin atəşi nəticəsində baş verdiyi" bildirilir.

**İsa ELDAROĞLU**

# Azərbaycan dənizçilərinin İrana səfəri başlayıb



Dostluq səfəri çərçivəsində İran İslam Respublikasının Ənzəli limanına gələn Azərbaycan hərbi dənizçilərini İran Hərbi Dəniz Qüvvələrinin nümayəndələri təntənəli şəkildə qarşılayıblar.

İranın Hərbi Dəniz Qüvvələrinin Şimal Donanmasının qərargahında baş tutan görüşdə donanma komandanı vitse-admiral Əhmədrza Bəğeri Azərbaycan nümayəndə heyətini qəbul edib.

Görüşdə Xəzəryanı ölkələrin Hərbi Dəniz Qüvvələri arasında əməkdaşlığın genişləndirilməsi və Azərbaycan hərbi dənizçiləri ilə dostluq əlaqələrinin möhkəmləndirilməsi məsələləri müzakirə edilib.

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin nümayəndəsi birinci dərəcəli kapitan Sübhan Bəkirov öz növbəsində hərbi dənizçilərimizin İrana ilk dəfə səfər etmələrindən məmnunluq hissini keçirdiklərini və bunun Silahlı Qüvvələrimiz arasında qarşılıqlı inamın və dostluq münasibətlərinin inkişafına xidmət etdiyini bildirib.

Səfər zamanı hərbi dənizçilərimizin bir sıra tədbirlərdə və görüşlərdə iştirakı nəzərdə tutulub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır"

## Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbirlər keçirilib





Müəllimlik həyatda ən şərəfli, müqəddəs peşədir. Çünki müəllim gənc nəslin formalaşmasında böyük rol oynayır. Daim təhsilin səmərəli təşkili, müəllim əməyinin şərəfi, məsuliyyəti barədə dəyərli fikirləri bizim üçün önəmli olan ümummilli lider Heydər Əliyev deyirdi: "Mən dünyada müəllimdən yüksək ad tanımıram".

Hər il oktyabrın 5-i respublikamızda Beynəlxalq Müəllimlər Günü təntənəli şəkildə qeyd olunur.

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə bu əlamətdar günə həsr olunan tədbirdə müəllim və kursantlar iştirak edirdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri açıq elan edən lisey rəisinin tədris işləri üzrə müavini polkovnik Elman Namazov ilk olaraq Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini, Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanovun və lisey rəisi polkovnik Raizi İsmayılovun təbriklərini oxudu. Bildirdi ki, hamımız birinci sinifdə oxuduğumuz illəri xoş təəssüratlarla xatırlayırıq. "Bizə sevgi və qayğı ilə qələm tutmağı, yazı yazmağı, kitab oxumağı öyrədən müəllimlərin xatirəsini həmişə əziz tuturuq. Müəllimlik dünyada ən çətin, eyni zamanda şərəfli və ən gözəl peşədir".





Polkovnik qeyd etdi ki, ümummilli liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirib, öz müəllimlərini minnətdarlıqla xatırlayıb. Ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə müəllimə hörmət və ehtiramla yanaşıb, pedaqoji sahəyə diqqət göstərib. Ümummilli liderimiz deyirdi: "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq".

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin müəllimi Sahib Əsədov müəllimlər adından söz alaraq hərbi təhsilə olan qayğıdan danışdı, dövlətin sosial siyasətində müəllimlərin mühüm yer tutduğunu vurğuladı.

O qeyd etdi ki, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə çalışan müəllimlərin üzərinə daha böyük məsuliyyət düşür. "Çünki bizlər həm ordumuz üçün zabitlər, həm də ölkəmiz üçün layiqli vətəndaşlar hazırlayırıq. Bizim savad, bilik öyrətdiyimiz, mənəvi dəyərlər aşıladığımız gənclərə Vətənin müdafiəsi kimi ən şərəfli vəzifə etibar olunur."

Tədbirdə bir qrup müəllim fəxri fərman və qiymətli hədiyyələrlə, yubilyar müəllimlər isə həmkarlar təşkilatı tərəfindən mükafatlandırıldılar.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin maraqlı konsert proqramı ilə başa çatdı.

* * *

5 Oktyabr - Beynəlxalq Müəllimlər Günüdür. Bu bayram həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır. Zaman-zaman müəllim haqqında müdrik sözlər deyənlər çox olub. Platon deyirdi: "Müəllimlik hər şeydən əvvəl bir tanrı sənətidir". Makedoniyalı İsgəndər isə öz müəllimi Aristotel haqqında "Valideynlərim məni göydən yerə endirdi, müəllimim isə yerdən göyə qaldırdı" ifadəsini söyləyib.

Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev də müəllim haqqında gözəl fikirlər söyləmişdi. Onun müəllim haqqında dediyi "müəllim yeganə şəxsiyyətdir ki, cəmiyyət özünün gələcəyini - uşaqların tərbiyəsini yalnız ona etibar edir" fikri müəllimə verilmiş ən gözəl tərifdir.

Beynəlxalq Müəllimlər Günü hər il ölkəmizin bütün sahələrində olduğu kimi, Silahlı Qüvvələrimizdə də təntənəli surətdə qeyd edilir. Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə "N" hərbi hissəsində təşkil olunan tədbirdə hərbi hissənin şəxsi heyəti və hərbi şəhərciyin nəznində fəaliyyət göstərən Əfqan Qadaşov adına tam orta məktəbin müəllim və şagirdləri iştirak etdilər.

Tədbirdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Polkovnik Mehman Kərimov çıxış edərək ölkəmizdə təhsilin müasir səviyyədə inkişafından danışaraq dövlət rəhbərliyinin bu vacib sahəyə yüksək qayğı göstərdiyini qeyd etdi. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlərdən söz açan zabit, dövlətimiz tərəfindən təhsilin maddi-texniki bazasının yaxşılaşdırılması üçün həyata keçirilən uğurlu islahatları vurğuladı.

- Təhsilimizin inkişafı istiqamətində keçirilən bütün tədbirlər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər" fikrini reallığa çevirib. Təhsil işçilərinin mükafatlandırılması, fəxri adlarla təltif edilməsi, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar da bu istiqamətdə aparılan uğurlu islahatların parlaq nümunəsidir.



Milli Qəhrəman general-leytenant Rövşən Əkbərovun müəllim kollektivinə ünvanlanmış təbriki oxunduqdan sonra ümummilli lider Heydər Əliyevin və Ali Baş Komandan İlham Əliyevin müxtəlif dövrlərdə təhsil ocaqlarında müəllim və şagirdlərlə görüşlərini əks etdirən videoçarx nümayiş etdirildi.

Polkovnik İdris Məhərrəmov da çıxış edərək müəllimlik peşəsinin çətin, məsuliyyətli, eyni zamanda şərəfli və müqəddəs bir peşə olduğunu vurğuladı. "Müəllim insanı həyata hazırlayan, onun dünyagörüşünü formalaşdıran müqəddəs varlıqdır. Övladlarımızı öz övladı kimi sevən, onların layiqli vətəndaş kimi böyümələri üçün ürəyinin yağını əridən müəllimlərimizə daim minnətdarıq", - deyən zabit müqəddəs peşə sahiblərinə möhkəm cansağlığı, şərəfli işlərində uğurlar arzuladı.

Müəllimlərə göstərilən diqqət və qayğıdan qürurlandığını bildirən məktəbin direktoru Türə Qasımova kollektivi adından hərbçilərimizə dərin minnətdarlığını bildirdi. "Dayaq yerimiz, qürur mənbəyimiz olan ordumuzun şəxsi heyəti ilə bir arada olmaqdan qürurlanıram. Sizlər xalqımızı qoruyursunuz. Vətən keşikçilərisiniz. Düşmən qarşısında sipər olursunuz ki, bizlər rahat, firavan yaşayaq. Sizin də övladlarınız bizlərə əmanətdir. Onları vətənpərvər, savadlı, cəmiyyətə yararlı vətəndaş kimi formalaşdırmaq bizim müqəddəs borcumuzdur", - məktəb direktoru dedi.

Sonra çıxış edən məktəblilər müəllimlərini şeir və mahnılarla təbrik etdilər.

Tədbirin bədii hissəsində Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin ifa etdiyi "İgidlər", "Azərbaycan", "Əziz müəllimim", "Sarı gəlin", "Vətən bayatıları" mahnıları və nümayiş etdirdikləri milli rəqslər izləyənlərin rəğbətinə səbəb oldu.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**
**2. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**
**3. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.**

**Mövzu:** Müstəqillik tariximiz. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqqında tarixi materiallardan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət*

Azərbaycan müstəqillikdən əvvəl Rusiya imperiyasının tərkibində idi. Rusiyanın 1914-cü ildə I Dünya müharibəsinə qoşulması nəticəsində ölkədə yaranan ağır iqtisadi vəziyyətdən, cəbhədəki uğursuzluqlardan məharətlə istifadə edən bolşeviklər xalq kütlələrini çar hakimiyyəti əleyhinə qaldırmağa müvəffəq oldular. 1917-ci ilin fevral inqilabının siyasi həyata gətirdiyi canlanma nəticəsində Azərbaycanın müxtəlif şəhərlərində müsəlman milli şuraları yaradıldı. Bu şuralar öz fəaliyyətlərini milli məqsədlər istiqamətində qurmağa çalışırdılar. Onların arasında ən güclüsü və nüfuzlusu Bakı Müsəlman İctimai Təşkilatları Şurası idi. Bu şuranın tərkibinə Azərbaycan milli-azadlıq hərəkatının liderləri olan Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Mehdi bəy Hacinski kimi ziyalılar daxil idilər. Özünün ümummilli xətti ilə xalqın rəğbətini qazanan şura Bakıda siyasi üstünlüyə malik idi.

Milli hərəkat fəallarının xalqın milli hüquqlarının təmin edilməsi yolunda irəli sürdükləri tələblər cəmiyyətdə əməli surətdə müdafiə olunurdu. Bu tələblər yalnız xalqın ağır yaşayışından doğan cari problemlərin həllinə deyil, eyni zamanda ümummilli mənafeləri əks etdirən strateji vəzifələrin həllinə doğru istiqamətləndirilmişdi.

Rusiyada 1917-ci il oktyabr silahlı üsyanından sonra Zaqafqaziya Xüsusi Komitəsi öz fəaliyyətini dayandırdı və noyabrın 11-də Zaqafqaziyada hakimiyyəti öz üzərinə götürəcək müvəqqəti orqan kimi Zaqafqaziya Komissarlığı yaradıldı. Komissarlığın tərkibinə Azərbaycandan Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlikaslanov və Xəlil bəy Xasməmmədov təyin edilmişdilər.

*Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.*

1918-ci il mayın 27-də Tiflisdə canişin sarayında Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən iclasda Azərbaycan Milli şurası yaradıldı və şura Azərbaycanın idarə olunmasını öz üzərinə götürdü. Mayın 28-də M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın ilk iclası oldu. İclasda Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul edildi və "İstiqlal bəyannaməsi"nin mətni təsdiqləndi. İstiqlal bəyannaməsində göstərilirdi ki:

1. Azərbaycan suveren dövlətdir, Azərbaycan xalqının hakimiyyəti altına Zaqafqaziyanın cənub və şərq hissələri daxildir.
2. Müstəqil Azərbaycan dövlətinin hökumət forması Xalq Cümhuriyyətidir.
3. Azərbaycan Xalq Cümhuriyyəti hamı ilə, xüsusən də qonşu millətlər və dövlətlərlə dostluq əlaqələri yaratmaq niyyətindədir.
4. Azərbaycan Xalq Cümhuriyyəti etnik mənşəyindən, dilindən, sinfindən, peşəsindən, cinsindən asılı olmayaraq, sərhədləri daxilində bütün vətəndaşlara tam mülki və siyasi hüquqlar üçün təminat verir.
5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisində məskunlaşmış bütün millətlərin azad inkişafını təmin edir.
6. Azərbaycan Müəssislər Məclisi çağırılana qədər Azərbaycan üzərində ali hakimiyyət hamı tərəfindən seçilmiş Milli Şura və bu şura qarşısında cavabdeh olan hökumət tərəfindən həyata keçirilir.

Milli Şuranın 28 may tarixli iclasında Azərbaycan Xalq Cümhuriyyəti ilk hökumətinin təşkil edilməsi Fətəli xan Xoyskiyə tapşırıldı. Həmin gün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tərkibi müəyyənləşdirildi. İlk hökumətin tərkibində hərbi nazir vəzifəsi Xosrov bəy Sultanova həvalə olunmuşdu.

Qatı millətçi Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin ixtiyarında olan, əsasən erməni və ruslardan təşkil olunmuş 18 minlik hərbi qüvvə iyunun 10-da Gəncə istiqamətində yürüşə başladı. Qafqaz İslam Ordusu və Azərbaycan Ordusunun hissələri Göyçay ətrafında bolşevik-daşnak qüvvələrini darmadağın edərək, Bakı istiqamətində azadlıq yürüşünə başladılar. İyulun 20-də mühüm strateji məntəqə olan Şamaxı azad edildi. Sentyabrın 15-də Azərbaycan hərbi hissələri və türk qoşunları Bakı üzərinə hücum edərək şəhəri azad etdilər. Azərbaycan hökuməti sentyabrın 17-də Bakı şəhərinə köçdü.

Lakin Azərbaycanda siyasi hadisələrin inkişafı daxili proseslərdən daha çox I Dünya müharibəsinin gedişindən və nəticələrindən asılı idi. Azərbaycan öz mənafeyi naminə Osmanlı dövlətinin qalib gəlməsini arzulayırdı. Lakin Türkiyə ilə Antanta dövlətləri (Fransa, İngiltərə və ABŞ) arasında 1918-ci il 30 oktyabr tarixli Mudros müqaviləsinə görə, məğlub sayılan Türkiyə qoşunlarını Azərbaycandan çıxarmalı, Antanta qüvvələrinin Bakıya gəlməsinə mane olmamalı, Zaqafqaziya dəmir yolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi.

Noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. Bakıda ingilis general-qubernatorluğu yaradıldı. İngilis qoşunlarının komandanı general Tomson Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməkdən imtina etsə də, Azərbaycanın Paris Sülh Konfransında iştirak edəcəyi, Bakıya erməni hissələrinin daxil olmayacağı barədə öz üzərinə öhdəliklər götürdü.

1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğu ləğv edildi, ingilislər Paris Sülh Konfransının şərtlərinə uyğun olaraq Qafqazı tərk etməyə başladılar.

1920-ci il yanvarın 11-də Paris Sülh Konfransı Azərbaycanın istiqlaliyyətinin tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qısa bir müddətdə normal fəaliyyət göstərən dövlət aparatı yaratmağa, 20-dən çox dövlətlə diplomatik əlaqələr qurmağa nail oldu. Yeni yaranmış dövlət fəaliyyəti dövründə "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideyası uğrunda mübarizə aparırdı.

Hökumətin Gəncədəki fəaliyyəti dövründə - 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında fərman imzalandı. İyunun 24-də üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı bayraq Dövlət Bayrağı kimi qəbul edildi, noyabrın 9-da isə həmin bayraq üçrəngli - mavi, qırmızı və yaşıl zolaqlardan ibarət olan bayraqla əvəz olundu.

1918-ci il avqustun 11-də ümumi hərbi səfərbərlik elan olundu və 1894-1899-cu il təvəllüdlü bütün Azərbaycan vətəndaşları hərbi xidmətə çağırıldılar. Nazirlər Şurasının qərarına uyğun olaraq 1918-ci il noyabrın 7-də Hərbi Nazirlik təsis edildi. 1920-ci ilin yanvarına artıq 30 min nəfər piyada və 10 min nəfər süvaridən ibarət ordu yaradılmışdı.

*Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində*

SSRİ-nin süqutundan sonra beynəlxalq aləmə tam müstəqil bir faktor kimi inteqrasiya etməyə başlayan gənc dövlətlərdən biri də Azərbaycan Respublikası idi. Ölkəmizin olduqca əlverişli geosiyasi məkanda, həm də dünyanın super güclərinin barışmaz maraqlarının kəsişdiyi regionda yerləşməsi milli dövlətçilik prinsiplərinə, müstəqilliyin və suverenliyin qorunmasına xidmət edəcək dayanıqlı xarici siyasi strategiyanın hazırlanmasını və tətbiqini tələb edirdi.

Qeyd edək ki, o dövrdə ölkəmizin müasir beynəlxalq münasibətlərin önəmli iştirakçısına çevrilməsi prosesi olduqca gərgin olub. Məhz ümummilli lider Heydər Əliyevin böyük səyi, müdrikliyi sayəsində Azərbaycan beynəlxalq ictimaiyyətlə uğurlu ünsiyyət qurataq, milli maraqlarının təmin edilməsində əhəmiyyətli addımlar ata bildi. Müstəqil Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində yeri və rolunun araşdırılması üçün ölkəmizin beynəlxalq aləmlə ilkin əlaqələr qurduğu şəraitə nəzər salmalıyıq. Ümumiyyətlə, Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəaliyyətə başlamasının əsası İstanbul konfransında (1918-ci il) qoyulub. Lakin 1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini dünya ictimaiyyətinin qəbul etməsi prosesi həm də şimal, cənub, qərbdən ölkənin milli təhlükəsizliyinə qarşı ciddi təhdidlərlə müşayiət edilirdi. Gənc respublikanın dövlətlərarası münasibətlərə daxil olması olduqca çətin idi. Bunu Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında məlumatın Türkiyənin səfirlikləri tərəfindən dünya ictimaiyyətinə çatdırılması da sübut edir.

Göründüyü kimi, tariximizin təxminən son 100 ili sübut edir ki, tamam fərqli siyasi reallıqlardan söhbət getməsinə baxmayaraq, AXC dövrü ilə 1991-ci ildə ikinci dəfə qazanılan müstəqillik dövrünün ilk illərindəki oxşar məqamlar çox olub. Belə ki, yenə də Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində regionda dünyanın böyük dövlətlərinin barışmaz maraqlarının toqquşması, milli təhlükəsizliyimiz üçün ciddi təhdid olan erməni təcavüzü, daxili siyasi vəziyyətin olduqca gərgin olması, 1991-1992-ci illərdə müstəqil Azərbaycanın gələcək inkişaf strategiyasının qeyri-müəyyənliyi müşahidə olunurdu.

Yalnız 1993-cü ildən başlayaraq, yəni, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda milli maraqların təmin olunmasına, beynəlxalq aləmlə sıx inteqrasiyaya istiqamətlənən xarici siyasi strategiya formalaşmağa başlandı. Özünün ilk andiçmə mərasimində (1993-cü il, 10 oktyabr) ümummilli lider Heydər Əliyev deyib: "...Bizim xarici siyasətimiz, birinci növbədə, Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrlə Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətməkdən ibarətdir".

Lakin həmin dövrün siyasi reallıqları fonunda buna birdənbirə nail olmaq qeyri-mümkün idi. İlk olaraq beynəlxalq ictimaiyyəti Azərbaycan Respublikası ilə qarşılıqlı əməkdaşlığa sövq etməli və onları bu əlaqələrin faydalı olacağına inandırmaq lazım idi. Yalnız bundan sonra milli maraqlarımızı regionda maraqları toqquşan dövlətlərin mənafeləri ilə uzlaşdırmaq, təhlükəsizliyimizə beynəlxalq təminat almaq üçün addımlar atarag müsbət nəticələr əldə etmək olardı. Həmin səbəbdən ümummilli lider Heydər Əliyev konkret dövlətlərin regionda hansı maraqlara malik olması və bu maraqların onlar üçün hansı səviyyədə əhəmiyyətli olmasını dərindən təhlil etdi.

Həmin dövrdə Azərbaycan Respublikası Rusiya ilə bərabərhüquqlu qarşılıqlı əlaqələr yaratmaqla yanaşı, Rusiyanın ölkəmizə olan təzyiqlərini neytrallaşdırmaq üçün digər strategiyalardan da yararlandı. Sonrakı addım Azərbaycanın etibarlı tərəfdaş kimi qəbul olunması üçün təsirli tədbirlərin həyata keçirilməsi oldu.

Məlumdur ki, Azərbaycan Respublikasının xarici siyasi kursunda Türkiyənin xüsusi yeri var. Artıq bu gün Azərbaycan-Türkiyə münasibətləri beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında inkişaf etdiriləræk tamam yeni mərhələyə qədəm qoyub. Göründüyü kimi, ümummilli lider Heydər Əliyev ilk öncə region dövlətləri, sonra isə dünyanın digər nüfuzlu dövlətləri ilə ikitərəfli və çoxtərəfli qarşılıqlı əlaqələr qurmaqla respublikamızın beynəlxalq münasibətlər sistemində özünə layiq yer tutması üçün etibarlı zəmin hazırladı.

NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qoşulması, Avroatlantik Tərəfdaşlıq Şurası və digər vasitələrlə NATO ilə tərəfdaşlıq mexanizmlərindən bəhrələnməsi ölkəmizin nüfuzunu daha da artırdı. Sülhməramlılarımızın Kosovo və Əfqanıstanda NATO-nun başçılığı ilə həyata keçirilən əməliyyatlarda, İraqda beynəlxalq koalisiyanın tərkibində səmərəli iştirakı ölkəmizin beynəlxalq aləmdə qəbul edilən rolundan xəbər verir.

Azərbaycan Respublikasının beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində rolunu və yerini dəyərləndirən dünya ictimaiyyəti artıq onu həm də etibarlı tərəfdaş kimi tanıyır. Respublikamızın karbohidrogen strategiyasının mühüm tərkib elementlərindən olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri bu gün bölgədə əməkdaşlığın, sülhün, təhlükəsizliyin təmin edilməsində xüsusi rol oynayır.

Hazırda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin beynəlxalq aləmdə milli maraqlarımızın qorunması istiqamətində gördüyü çoxşaxəli işlər, apardığı müstəqil xarici siyasət Azərbaycan Respublikasının nüfuzunun daha da artmasına zəmin yaradıb.

Ölkəmizi dünya birliyinə təqdim edən ümummilli lider Heydər Əliyevin balanslaşdırılmış çoxşaxəli siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin düşünülmüş strategiya və gərgin diplomatik səyləri nəticəsində müasir Azərbaycan Respublikası beynəlxalq münasibətlərin tamhüquqlu subyektinə çevrilib. Sürətli iqtisadi inkişaf və dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq normalarına sadiqlik nümayiş etdirməsi isə ölkəmizi regionda lider dövlət və beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanıdıb.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

*Medallı igidlərimiz*

# Şəhidliyin ünvanı əbədiyyətdir



*Zaman-zaman igidlərimizi itirdik Vətən savaşında, minlərlə şəhid verdik. Düşmənə boyun əyməyən şəhidlərimizin adları xalqımızın qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazıldı. XX əsrin sonlarından bu günədək işğalçı Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəsi davam edir. Düşmən atəşkəsi pozaraq cəbhə xəttində gərginlik yaradır, təxribatlar törədir. Təxribatların qarşısı peşəkar hərbçilərimiz tərəfindən anındaca alınır və düşmən geri oturdulur.*

Erməni təcavüzkarlarının növbəti təxribatı bu il fevralın 24-dən 25-nə keçən gecə Xocavənd istiqamətində baş verir... Mayor Aqşin Abdullayev də qaynar nöqtəyə göndərilir. Qorxubilməz və ölümün gözünə dik baxan Aqşin və onun döyüşçü yoldaşları içdikləri Hərbi anda, Vətən, torpaq andına sadiq qalaraq güclü təxribatın qarşısını alarkən şəhid olurlar...

Şəkinin qədim Kiş kəndində möhtəşəm bir abidə ucalır. Şəhidlərə, ölməzliyə ehtiram abidəsi. Orada uyuyan şəhidlər qəhrəmanlığı sanki doğma Qafqaz dağlarının əzəmətindən, cürəti, cəsarəti, qorxmazlığı göz qırpımında qaynayıb kükrəyən, aşıb-daşan Kiş çayından alıblar. Elə bil indi də o dağlar şəhid övladlarına qoynunu açıb ruhlarına həzin-həzin layla deyir... Məzar daşlarına həkk olunan adları oxuyuram. Bu kənddən Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə 9 nəfər şəhid olub. Mayor Aqşin Abdullayev isə bu il fevralın 25-də canından, qanından keçərək şəhidlik zirvəsinə ucaldı.

Aqşin İsmayıl oğlu Abdullayev 1982-ci il oktyabrın 7-də Şəki rayonunun Kiş kəndində doğulub boya-başa çatmışdı. Orta məktəbi əla qiymətlərlə başa vuran Aqşin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. 2003-cü ildə bu hərbi təhsil ocağını başa vuran Aqşin leytenant hərbi rütbəsi alaraq Silahlı Qüvvələrimizin müxtəlif hərbi hissələrində şərəfli xidmət yolu keçir. Xidməti dövründə fəxri fərmanlarla, diplomlarla, "Qüsursuz xidmətə görə" 2-ci və 3-cü dərəcəli medalları və yubiley medalları ilə təltif olunur. Vətənpərvər zabit sonuncu hərbi əməliyyatda göstərdiyi igidliyə görə ölümündən sonra Azərbaycan Respublikası Prezidenti tərəfindən təsis edilmiş "Şücaətə görə" medalına layiq görülür. Azərbaycan Ordusunun şəhid mayoru bu medala layiq görülən ilk şəxs kimi tarixə düşür.

Ömrünü şagirdlərinin yolunda şam kimi əridən ağbirçək Dursun müəllimə şəhid oğlunun həyat hekayətini bizə danışır: "Aqşin həyatı başa düşəndən qonuma-qonşuya, qohuma-əqrabaya, elə, obaya dayaq olub. Kənddə kiminsə köməyə ehtiyacı olanda Aqşini çağırardı. Uşaqlıqdan dostcanlı, qohumcanlı, mehriban idi. Uşaqla uşaq, böyüklə böyük kimi davranardı. Onun haqqında keçmiş zamanda danışa bilmirəm. Gördüyünüz bu dağların hər daşına, qayasına bələd idi. Bütün dağlıq-meşəlik yolları tanıyırdı, təbiətin vurğunu idi. Heyvanları, bitkiləri çox sevirdi. Həyətə müxtəlif bitkilər əkirdi. Mənə tez-tez məntiqli suallar verirdi. Fikirləşirdik ki, Aqşin böyüyəndə bioloq olacaq. Lap kiçik yaşlarından oxumağa, elmə maraq göstərirdi. Hələ dörd yaşı var idi. Nənəsinin yanında qoyub məktəbə getməli olurdum. Tənəffüs zamanı bir də görürdüm ki, Aqşin ya Bahirə müəllimənin, ya da Alışan müəllimin sinfindən çıxır. Yeniyetməlik dövrünə qədəm qoyanda peşəkar hərbçi olacağını düşünmüşdü", - deyə Dursun ana gözlərini bir nöqtəyə zilləyib aram-aram danışır: "Ölümün gözünə dik baxırdı. Deyirdi ki, hər bir əsgər, hər bir zabit döyüşə gedəndə gərək qorxmasın. Hər bir anaya öz övladı əzizdir, şirindir, hamıdan güclüdür. Təkcə mən onunla övladım olduğuna görə deyil, Azərbaycan Ordusunun bir zabiti, hərbçisi kimi fəxr edirdim. Vətənini, xalqını, dövlətini, ordusunu sevən bir zabit kimi... Bu gün də fəxr edirəm, sabah da fəxr edəcəm. Axı mənim övladım canı qədər sevdiyi Vətən, torpaq uğrunda şəhid olub. Aprel döyüşlərindən, qələbəmizdən, döyüşlərdə şəhid olan hərbçilərimizdən qürurla danışardı. "Şəhidlik hər kəsə qismət olmur, o zirvəyə hər kəs ucala bilmir" - deyərdi.



- Dursun müəllimə, Aqşinin Vətənə, torpağa, eləobaya bağlılığı və sevgisi, yəqin ki, öncə ailənizdən başlayıb...

Dursun ana bayaqdan əlində saxladığı Aqşinin şəklindən baxışlarını ayırmadan söhbətinə davam edir: "Mənə sual verərdi, Vətən nədir? Deyirdim ki, bax, bizim bu evimizdən başlayır Vətən. Bizim evimiz, Kiş kəndi, Şəkimiz, nəhayət, Azərbaycan bizim Vətənimizdir. Doğma Vətənimizin hər qarışı bizim üçün əzizdir. Şəhid olanda da Vətən torpağı ovcunun içində idi... Yağış yagan kimi həyətə qaçırdı. Torpağın ətrini sevərdi. Deyərdi ki, Qarabağı düşməndən azad edək, gedib Ağdamda ev tikib yaşayacam. Görün, Aqşinin qəlbindən hansı arzular keçirdi".



Aqşini tanıyanlar, tabeliyində olan əsgərlər də, zabit yoldaşları da söyləyirdilər ki, o, cəsur, fədakar, cəldliyi, çevikliyi ilə hər kəsə nümunə olan bir zabit idi. Doğulub boya-başa çatdığı, qarış-qarış gəzdiyi doğma Kiş kəndini, Şəkini, bütün Azərbaycanı sevirdi.

Aqşin, doğrudan da, igidliyi, qəhrəmanlığı ilə elə-obaya gərəkli övlad, Vətənə layiqli oğul oldu, əməli ilə hər kəsin başını uca etdi, qəhrəmanlığı ölkəyə yayıldı. Canından artıq sevdiyi Vətən uğrunda, torpaq uğrunda mərdlik, şəhidlik zirvəsinə ucaldı... Son döyüş anı isə hamını heyrətləndirdi. Yaralı halda döyüşçü yoldaşı Zülfünü tək qoymur. Ona doğru sürünür. Bir ovcunda Vətən torpağı, o biri əli ilə döyüşçü yoldaşı Zülfünün qolundan tutur. Sevimli komandir əsgəri ilə birlikdə şəhid olur...

İllər keçir, hər şey unudulur. Unudulmayan isə təkcə şəhidlərdir. Onlar tarixdə daim yaşayırlar. Dursun ana deyir ki, hər dəfə Bakıya yolum düşəndə Şəhidlər xiyabanında canını Vətən yolunda qurban verən şəhidlərimizin məzarlarını ziyarət edərdim. "Məktəbdə şagirdlərimə şəhidlərimiz barədə saatlarla danışırdım. İndi isə Azərbaycan Ordusunun zabiti mayor Aqşin Abdullayev haqqında danışacam. Bu gün Aqşin tək mənim övladım deyil, Azərbaycan xalqının şəhid övladlarından biridir. Aqşinin yaxın dostları, Vətənə övladlıq borcunu verib geri dönən əsgərləri, komandirləri, onu yaxından tanıyan insanlar son dəfə vidalaşmağa gələndə fəxrlə söyləyirdilər ki, Aqşin kimi oğullar vətənsevərliyi ilə hər birinin yaddaşında əbədi qalacaq. Döyüş yoldaşı, əsgəri üçün sinəsini sipər edən Aqşin kimi komandirin anası olduğum üçün qəlbim dağa dönür".

Şəhid zabitimizin atası İsmayıl Abdullayev isə söhbətimizdə oğlunun Vətən yolunda, torpaq uğrunda şəhid olduğunu deyir: "Bu mənə bir ata kimi qürür verir. Oğul Vətən üçün doğulur. Aqşinin üç övladı bizə əmanət qalıb. Onlar atalarına layiq övlad kimi böyüyüb əsl vətəndaş olacaqlar. Aqşinin yarımçıq qalmış arzularını onlar həyata keçirməlidirlər".

Aminin 13 yaşı var. 7-ci sinifdə oxuyur. Dərs əlaçısıdır. Atasının davamçısı olmaq istəyindədir.

Nərminin 8 yaşı var. O da qardaşı kimi əlaçıdır.

1 yaşlı Ömər isə hələ qayğılardan uzaqdı. Anası Xuraman xanım deyir ki, çox həssas uşaqdı. "Atasının şəkillərinə diqqətlə baxır. Elə bil ki, onu tanıyır. Danışmaq istəyir..."

Aqşinə orta məktəbdə dərs demiş müəllimlərdən Mənsurə Xasməmmədova, Bayram Xəlilov və başqaları da belə vətənsevər yetirmələri olduğu üçün iftixar hissi keçirdiklərini bildirdilər və onun həyat yolunu indiki gənc nəslə layiqli örnək hesab etdilər. Mənsurə müəllimə Aqşin haqqında danışarkən dedi ki, o, dünya və Azərbaycan klassik ədəbiyyatını sevirdi. "Azərbaycan klassiklərindən Hüseyn Cavidin, Əhməd Cavadın, Səməd Vurğunun və Aşıq Ələsgərin yaradıcılığından bilgiləri çox idi. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Aqşinin uşaqlıq dostu Laçın və Ələddin müəllim, vaxtilə eyni sinifdə oxuduğu Elmir müəllimlə və başqa müsahiblərlə apardığım söhbətlər də mənə bir daha yəqin etdi ki, şəhidliyin ünvanı əbədiyyətdir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Nigerdə ABŞ hərbçilərinə silahlı hücum: ölən və yaralananlar var



Nigerin cənub şərqində ABŞ hərbçilərinə silahlı hücum nəticəsində 3 nəfər ölüb, 2-si yaralanıb.

Bu barədə "The New York Times" qəzeti məlumat yayıb.

ABŞ Silahlı Qüvvələrinin Afrika komandanlığı məlumatı hələlik təsdiqləməyib.

### İraq ordusu Kərkükün Əl-Havice rayonunu İŞİD qruplaşmasından geri alıb



İraqın hökumət qüvvələri İŞİD qruplaşmasının silahlılarını Kərkük əyalətinin Əl-Havice rayonundan çıxarmağa nail olub. Bu rayon silahlıların ölkənin şimalındakı son dayaq məntəqəsi idi.

Məlumatı təsdiqləyən İraq Silahlı Qüvvələrinin komandanlığının nümayəndəsi Əbdül Əmir Yarallahın sözlərinə görə, 9-cu zirehli tank diviziyasının hissələri, federal polis dəstələri və Daxili İşlər Nazirliyinin çevik reaksiya qüvvələri şiələrin "Əl-Həşd əş-Şəəbi" qruplaşmasının döyüşçüləri ilə birgə Əl-Havice rayonunun mərkəzini tam nəzarətə götürüb.

Qeyd edək ki, Kərkük şəhərindən 55 kilometr aralıda yerləşən Əl-Havice 2014-cü ildən İŞİD qruplaşmasının əlinə keçmişdi.

### Çinə aid iki gəmi beynəlxalq sularda toqquşub, 12 nəfər itkin düşüb



Çinə aid iki gəmi Oki adalarının şimalındakı beynəlxalq sularda toqquşub.

Hadisə nəticəsində 12 nəfər itkin düşüb. Gəmilərdən biri 290 ton ağırlığında balıqçı gəmisi, digəri isə 63 min 294 tonluq neft tankeri olub. Qəzada balıqçı gəmisi batıb.

Çinin Osaka səfirliyinin məlumatına görə, qəzadan sonra Çin Sahil Təhlükəsizlik Qüvvələri Yaponiyadan xilasetmə tədbirləri üçün yardım istəyib və hadisə yerinə üç xilasedici gəmi göndərilib.

### Tarixdə ilk dəfə olaraq Səudiyyə Ərəbistanının Kralı Rusiyaya səfər edib



Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz əs-Səud Rusiyaya səfər edib.

Səudiyyə Ərəbistanının 81 yaşlı Kralının Rusiyaya bu səfəri tarixdə ilk rəsmi səfər kimi qəbul olunub.

Səfərin əlaqələrin inkişafında mühüm əhəmiyyət daşıdığını vurğulayan Rusiya Prezidenti Vladimir Putin bunun ikitərəfli əməkdaşlığa müsbət təsir edəcəyinə ümidvar olduğunu bildirib. Görüşdə iki ölkə arasında ticarət sazişinin imzalanması, o cümlədən Putin və Kral Salmanın enerji layihələrini həyata keçirmək üçün 1 milyard dollarlıq investisiya fondu yaratması da gözlənilir.

Rusiyanın energetika naziri Aleksandr Novak səfər zamanı imzalanacaq sazişlərin ümumi dəyərinin 3 milyard dollar təşkil etdiyini açıqlayıb.

### Braziliyada ölkə tarixində ən böyük qarətin qarşısı alınıb



San-Paulu şəhərinin polisi bank qarətinə cəhd göstərməkdə şübhəli bilinən 16 nəfəri həbs edib.

Cinayətkarlar "Banco do Brasil" bankının xəzinəsinə aparan təxminən 500 metrlik tunel qazıblar. İstintaqın versiyasına görə, şübhəlilər 1 milyard real (318 milyon dollara yaxın) oğurlamaq istəyirmiş. Polis müəyyən edib ki, tunelin tikintisinə təxminən 1 milyon dollar xərclənib. Plan baş tutsaydı, ölkə tarixinin ən böyük qarəti baş verəcəkdi.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyi "Ehtiyat zabit hazırlığı kursu"na namizədlərin qəbulunu elan edir

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təşkil olunacaq "Ehtiyat zabit hazırlığı kursu"na namizədlərin qəbulu elan edilir.

"Ehtiyat zabit hazırlığı kursu"na qəbul şərtləri:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində təşkil olunan "Ehtiyat zabit hazırlığı kursu"na ali təhsilli, müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 28 yaşınadək ehtiyatda olan hərbi vəzifəlilər qəbul olunurlar.

"Ehtiyat zabit hazırlığı kursu"na qəbul olunmaq istəyən namizədlər 13 noyabr 2017-ci il tarixdən 29 noyabr 2017-ci il tarixədək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə - 1 nüsxədə və çap edilmiş - 2 nüsxədə;
- hərbi biletin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- ali təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- xarici dövlətlərdə təhsil almış namizədlər üçün, ali təhsil haqqında sənədin notarial qaydada tərcümə və təsdiq edilmiş surəti ilə yanaşı, həmin sənədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4.5x6 sm ölçüdə);
- məhkumluğun olub-olmaması barədə qeydiyyatda olduğu Rayon Polis İdarəsi (şöbəsi, bölməsi) tərəfindən verilmiş arayış;
- psixiatrik, nevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması barədə arayışlar;
- qeydiyyatda olduğu poliklinikadan sağlamlıq haqqında arayış;
- qeydiyyatda olduğu poliklinikadan son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi haqqında arayış.

**Qeyd:** Məhkumluğu olan, əvvəllər bağlaşma əsasında könüllü həqiqi hərbi xidmətdən xidməti uyğunsuzluğa görə ehtiyata buraxılan hərbi vəzifəlilərin "Ehtiyat zabit hazırlığı kursu"na qəbul üçün müraciət etməmələri xahiş olunur.

Qəbul olunmaq üçün müraciət etmiş namizədlər test və fiziki hazırlıqdan keçirilən imtahanlara cəlb edilirlər.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi).

**Telefon:** (012) 538-85-62
**Müraciət etmə vaxtı:** Noyabrın 13-dən 29-dək hər gün (bazar günü istisna olmaqla) saat 09.00-dan 17.00-dək.

*Hərbi ənənələr, yeniliklər*

# Pakistanın ballistik raketləri



Hazırda Pakistan yüksək keyfiyyətli raketlərin istehsalı üçün hərbi elmi-texniki bazaya malikdir. Bununla belə bu dövlətin rəhbərliyi digər ölkələrlə hərbi əməkdaşlığa da önəm verir.

**"Hatf-1A" taktiki raket kompleksi.** 1970-1980-ci illərdə Pakistanda ballistik raketlərin hazırlanmasında fransız və alman texnologiyalarından istifadə edilib. Aparılmış tədqiqatlar nəticəsində idarə olunmayan, maksimal atəş uzaqlığı 80-100 kilometr təşkil edən "Hatf-1 və 1A" taktiki raketləri hazırlanıb. Bu raketlər 1992-1995-ci illərdə silahlanmaya qəbul edilib. Hazırda isə "Hatf-1" raketi silahlanmadan çıxarılıb. 2001-2004-cü illərdə "Hatf-1A" taktiki raketinin modernləşdirilməsi üzrə işlər davam etdirilib. Və qərb ekspertlərinin qiymətləndirməsinə görə, burada əsas diqqət raketin taktiki atəş dəqiqliyinin artırılmasına yetirilib. Modernləşdirilmədən sonra raket "Hatf-1B" təyinatını alıb.

**"Hatf-2" raket kompleksi.** 1997-ci ildə maksimal atəş uzaqlığı 200 kilometr olan operativ-taktiki "Abdali" raketinin hazırlanmasına başlanılıb və 2005-2006-cı illərdə təcrübi-döyüş istismarına qəbul edilərək "Hatf-2" raket kompleksi adını alıb.

**"Hatf-3" raket kompleksi.** 1997-ci ildə Pakistan Çinin köməyi ilə, M-11 texnologiyasından istifadə etməklə, atəş uzaqlığı 400 kilometrə qədər olan "Qaznavi" taktiki-operativ raketinin hazırlanmasını həyata keçirib və işlər başa çatdıqdan sonra yeni raket "Hatf-3" adını alaraq 2005-ci ildə silahlanmaya qəbul edilib.

**"Hatf-4" raket kompleksi.** Pakistan 1995-ci ildə Çinlə birlikdə atəş uzaqlığı 750 kilometr olan "Şahin-1" taktiki-operativ raketini hazırlayıb və raket 2005-ci ildə Pakistanın Silahlı Qüvvələrinə qəbul edilib. Xarici ekspertlərin məlumatına görə, 2010-cu ildə isə "Şahin-1" raketinin təkmilləşdirilməsi üzrə işlər aparılıb. Modernləşdirilmiş ballistik raketin atəş uzaqlığı 2000 kilometrdir. O, şərti olaraq "Şahin-1A" təyinatını alıb.

**"Hatf-5" raket kompleksi.** Pakistan 1990-cı ilin əvvəlində "Nodon" texnologiyası əsasında KXDR ilə birlikdə, atəş uzaqlığı 1300 kilometrə qədər olan "Qauri" raketinin hazırlanmasına başlayıb və "Hatf-5" raket kompleksinin tərkibində silahlanmaya qəbul edilib. "Qauri" raketinin bir çox modifikasiyaları da hazırlanıb.

**"Hatf-6" raket kompleksi.** 1999-cu ildə Çinin kosmik korporasiyası ilə birlikdə "Şahin-2" qatı yanacaqlı raketin yaradılması üzrə işlər həyata keçirilib, 2004-cü ildə onun uçuş sınağı olub. Sınaqdan sonra 2008-ci ildə "Hatf-6" raket kompleksinin tərkibində silahlanmaya qəbul edilib.

Bundan başqa ölkədə yerətrafı orbitə çıxarılmaq üçün 80 kiloqram çəkisi olan raket-daşıyıcısının hazırlanması üzrə işlər də aparılıb və maliyyə çatışmazlığı üzündən onun layihəsi tam başa çatmayıb. Bununla belə Pakistan bütün gücünü ballistik raket komplekslərinin yaradılmasına və onların nomenklaturasının genişləndirilməsinə yönəldib.

Hələ İslamabad 1990-cı ildən başlayaraq fəal olaraq Çin və KXDR-lə əməkdaşlığa başlayıb. Bu ölkə Çinlə birlikdə "Abdali", "Qaznavi", "Şahin-1" və "Şahin-1A", həmçinin "Şahin-2" raketlərini və KXDR ilə birgə "Qauri" taktiki-operativ raketlərini hazırlayıb. Hal-hazırda Pakistanda raket silahının inkişafı və təkmilləşdirilməsi proqramının əsas istiqamətlərindən biri milli ballistik raketlərin texniki-taktiki xüsusiyyətlərinin işlənilməsi (maksimal atəş uzaqlığı, dəqiqliyi, davamlılığı və s.); şəxsi elmi-istehsal və təlim-sınaq bazasının inkişaf etdirilməsi və sairdir. 2020-2030-cu illər üçün mövcud ballistik raketlərin yeni modifikasiyalarının hazırlanması da gözlənilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan idmançıları uşu üzrə 14-cü dünya çempionatında iki medal qazanıblar



Azərbaycan idmançıları Kazanda keçirilən uşu üzrə 14-cü dünya çempionatında iki medal qazanıblar.

Mötəbər yarışda ölkəmiz üç idmançı ilə təmsil olunub. Mundialda 48 kiloqram çəki dərəcəsində mübarizə aparan Orxan Hətəmov Türkiyə və Şri-Lanka idmançılarına qalib gələrək finala yüksəlib. Sonuncu döyüşdə Çin təmsilçisinə məğlub olan Orxan Hətəmov çempionatı gümüş medalla başa vurub.

Dünya çempionatında 65 kiloqram çəki dərəcəsində mübarizə aparan Ruslan Pirəliyev Gürcüstan, Fransa və İordaniya idmançılarını məğlub edib. Lakin ayağından zədə alan R.Pirəliyev Çin idmançısı ilə yarımfinal döyüşünə çıxa bilməyərək bürünc medalla kifayətlənməli olub. Rafael Tarverdiyev (60 kq) isə yarımfinalda Rusiyalı idmançısına məğlub olaraq mübarizəni dayandırıb.

## Azərbaycanlı üzgüçü Qətərdə dünya kuboku mərhələsinin qalibi olub



Azərbaycan üzgüçüsü Maksim Şemberev Qətərin paytaxtı Dohada keçirilən üzgüçülük üzrə Dünya Kuboku mərhələsinin qalibi olub.

Təmsilçimiz 400 metr məsafəyə kompleks üsulla üzmə yarışında 4.06,72 dəqiqəlik nəticə göstərərək finişə birinci çatıb.

Fatimə Əlkərmova isə 800 metrlik məsafəyə sərbəst üsulla üzmə yarışında beşinci olub.

## Peşəkar kikboksçumuz Almaniyada növbəti döyüşünü keçirəcək



Azərbaycan Kikboksinq Federasiyasının üzvü, bir sıra beynəlxalq yarışların qalibi, peşəkar kikboksçu Xəyal Əhmədov oktyabrın 7-də Almaniyanın Bohum şəhərində növbəti döyüşünü keçirəcək.

İdmançı hazırda Türkiyədə məşqlərini davam etdirdiyini bildirib.

"Rəqibim Kevin Keitke güclü idmançıdır. Ona görə də bu qarşılaşmaya ciddi hazırlaşıram. Hazırda Türkiyədə məşqlərimi davam etdirirəm. İnanıram ki, qələbə qazanıb, üçrəngli bayrağımızı ucaldacağam. Bir idmançı üçün bundan böyük qürur mənbəyi ola bilməz", - deyə X.Əhmədov qeyd edib.

## Qayayadırmanma üzrə açıq ölkə çempionatı keçirilib



Azərbaycan Dağçılıq və Ekstremal İdman Növləri Federasiyaları Assosiasiyasının (ADEİNFA) və Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının (FAIREX) təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Siyəzən rayonunun inzibati ərazisində yerləşən Beşbarmaq dağında qayayadırmanma üzrə açıq ölkə çempionatı keçirilib.

Kişilər və qadınlar arasında üç mərhələdə keçirilən ümumrespublika yarışının qaliblərinə Gənclər və İdman Nazirliyinin diplomları, Azərbaycan Dağçılıq və Ekstremal İdman Növləri Federasiyaları Assosiasiyasının və Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının kubok və medalları təqdim olunub.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Cavadov Elmar Elman oğluna 2014-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 393
Nüsxə 4600